***İsa Şuşalı***

## *Xocalıya qayldacaq*

***Xocalıları Xocalıya qayıtmaq inamı yaşadır***

Qanımıza susayanlar,
Axıtsa da haqsız qanlar,
Xocalıya qayıdacaq,
Xocalıda doğulanlar!
Bu gen dünya başına dar,
Olsa həddin aşmaz qəddar!
Xocalıya qayıdacaq,
Xocalıda doğulanlar!
Alçaq haqqı çətin anlar!
Haqq alçağı dağlar, qanlar!
Xocalıya qayıdacaq,
Xocalıda doğulanlar!
Haqq çıxarsa qəti qərar,
Elim olar xoş günə yar!
Xocalıya qayıdacaq,
Xocalıda doğulanlar!
Azğını tez tutar azar,
Günahını yuyar məzar!
Xocalıya qayıdacaq.
Xocalıda doğulanlar
Qanımıza susayanlar
Yerdə qalmaz haqsız qanlar
Xocalıya qayıdacaq,
Xocalıda doğulanlar
Xocalıda doğulanlar.

***Şuşalı İ. Xocalıya qayıdacaq : şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.98-99.***